# Faiq Baysalın "Sarduvan" romanında urbanizasiya

**Eşqanə Babayeva**
*filologiya üzrə fəlsəfə doktoru, dosent,*
*Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
**E-mail:** eshqane@mail.ru

**Rəyçilər:** filol.üe.d., prof. A. Abıyev,
filol.ü.e.d., prof. E. Quliyev

**Açar sözlər:** türk ədəbiyyatı, Faiq Baysal, sosialist realizm, kənd romanı, konflikt
**Ключевые слова:** турецкая литература, Фаик Байсал, социалистический реализм, сельский роман, урбанизация, конфликт
**Key words:** Turkish literature, Faikh Baysal, socialist realism, rural novel, urbanization, conflict

Cümhuriyyət dövrü türk ədəbiyyatının görkəmli şəxsiyyətlərindən biri də Faiq Baysal olmuşdur. 1922-ci ildə Adabazarında doğulan Faiq Baysal, ilk təhsilini Saint Josep liseyində almış, daha sonra isə İstanbul Universiteti Ədəbiyyat fakültəsi fransız dili və ədəbiyyatı müəllimliyini oxumuş, müxtəlif məktəb və liseylərdə İngilis və fransız dili müəllimi işləmiş, müəllimliklə yanaşı tərcüməçilik də etmişdir. Faiq Baysal uzun müddət müxtəlif ensiklopediyalarda tərcüməçi kimi fəaliyyət göstərmişdir. Əsl adı Mustafa olan Faiq Baysal (1922-2002) Türkiyədə Nazim Hikmətlə başlayan sosialist-realist cərəyanın nümayəndələrindəndir. Yeri gəlmişkən qeyd edək ki, buna görə dəfələrlə təqiblərə də məruz qalmışdır. Hətta hərbi məktəbdə oxuyarkən "Karıma məktub" adlı şeir yazdığını, şeirdə "göz yaşı yasaqdır əsgərə" misrasına görə bir ay yarım həbsxanada yatdığını, "Moskva damğa"sına məruz qaldığını, çoxlu müəllim, professor və sənətkarın yatdığı bu həbsxana guşəsinə düşməkdə hətta gecikdiyini belə qeyd edir (1, 177).

Faiq Baysalı cəmiyyətin problemləri və iqtisadi sıxıntıların girdabında çabalayan kiçik insanların ağır taleyi maraqlandırırdı. Çoxsahəli yaradıcılığa sahib olan yazıçı, şair Faiq Baysal "Sarduvan", "Rəzil dünya", "Voli", "Kiçik insanlar", "Madam Bambu" və "Atəşi yandıranlar" romanlarının müəllifidir. Onun, "Perşembe adası", "Sancı Meydanı", "Güller Kanıyordu", "Elleri Sesinin Rengindeydi", "Nuni", "Tota", "Militan", "İlgaz Teyze Öldü", "Terlikler" və s. kimi hekayələri də vardır. Yazıçı, əsasən "Sarduvan" "Kiçik insanlar" və "Rəzil dünya"romanlarında kənddən şəhərə köç, kəndlinin acınacaqlı durumu, aclıq, səfalət kimi məsələlər üzərində durmuşdur.

1920-40-cı illər kənd mövzusuna həsr olunmuş romanlarda əsas məsələlərdən biri də kənddən şəhərə və ya müxtəlif səbəblərdən kəndə köç problemi idi. Bu səpkidə qələmə alınan romanlardakı xarakterlər özünə və ətrafına yabançılaşma, yadlaşma, kəndçi"liklə şəhərliləşmə (urbanizasiya) arasında uyumsuzlıq sindromu ilə diqqəti cəlb edir.

20-40-cı illər türk ədəbiyyatında əks-səda doğuran sosialist-realist romanlardan biri də "Sarduvan" romanıdır. Yazıçı bu əsərini 19 yaşında yazmışdır. Yazıçı əsərini çap etmək üçün, əsgərlikdən icazə alır. Həmin gecə 1943-cü ildə dəhşətli bir zəlzələ olur. Faiq Baysal ağır yaralanır, ən dəhşətlisi isə əlində tək nüsxə olan "Sarduvan" itir. Yazıçı, onu yenidən qələmə alsa da, bu dəfə çap problemi ilə qarşı-qarşıya gəlir. Tək partıyalı dönəmin rejimindən qorxan nəşriyyat evləri romanı çap etməkdən boyun qaçırırlar. Romanın 100 səhifəsinə senzura

qoyulmaqla 1944-cü ildə "Səmih Lütfi" kitab evində nəşr olunur. Roman böyük səs-küyə, yazıçının tənqidlərə məruz qalmasına səbəb olur. Faiq Baysal bu haqda yazır:

"Sarduvan" romanı tənqidçilərin də diqqətini cəlb etmişdir. Cəlaləddin Əzinə Baysalın bu əsər vasitəsiylə Türk ədəbiyyatını Fransız romanının təsirindən qurtararaq rus roman texnologiyasını gətirdiyini, bununla da türk ədəbiyyatında yeni bir cığır açdığını yazır (4, 66). Tədqiqatçı Tahir Alangu isə "Cümhuriyyətdən sonra roman və hekayə" adlı əsərində "Sarduvan" romanından bəhs edərkən, yazır ki, bu əsər üslub baxımından bizdəki realist romançılardan daha fərqli, bəlkə də Emil Zolyadan təsirlənərək, rus və Amerikan romançılarından fərqli bir yol izləmişdir.

Roman, yalnız 1993-cü ildə tam şəkildə "Can yayınları"nda nəşr olunmuş, 1994-cü ildə isə "Orxan Kamal roman Ərmağanı"na layiq görülmüşdür.

Digər kənd romanlarında olduğu kimi, "Sarduvan"da da iki əks qütb üz-üzə gəlir, əzənlər və əzilənlər, aclıqdan dizləri əsən kəndlilər və harın ağalar. Kənddə insanlar aclıqdan əziyyət çəkdikləri vaxt, kəndin muxtarı keyf-damaq içərisində yaşayır. Əsərin əsas qəhrəmanı Qavruq adıyla tanınan əsl adı isə Cevri olan bir gəncdir. Zalım-məzlum, əzən-əzilən konflikti müstəvisində təqdim olunan bu obraz kasıb, həmişə əzilməyə məruz qalan, istismar olunan sinifin nümayəndəsi olaraq göstərilir. "Məzlum, cəfa çəkən" mənasını verən Cevri adı da əslində simvolik xarakter daşıyır.

Başda Qavruq olmaqla, Bulama (əsl adı Bəkir), Keko, Abut və s. kəndli obrazları səfalət içərisində sürünürlər. Ən böyük dərdləri bir tikə çörək tapmaq olan insanların bu vəziyyəti belə təsvir edilir.

"Dədə-babadan qalma bir adətlə ancaq çörəyi tanıyırdılar. Dostluqları, qohumluqları belə bu çörəkləydi. Gecə-gündüz çalışmaları, didinmeleri, qovğaları, bütün dərdləri, göz yaşı tökmələrinin, bir-birlərinin canına qıymalarının səbəbi, otuz iki sağlam bəyaz dişlərin arasında büyük iştaha ilə yedikləri şey, Allahları da o, çörək idi" (3, 60).

Romanın hər səhifəsində aclıq çəkən, əzab-əziyyətə məruz qalan kəndli obrazını görürük. Kənddə hər gün ən azından iki nəfərin öldüyü, bundan isə İmam Cərzizin xeyir götürdüyü vurğulanır.

Faiq Baysal əsərdə öz təxəyyülünü deyil, kəndlilərin real vəziyyətini əks etdirmişdir. Kənd həyatı, bazarı, əkin-biçini olduğu kimi təsvir edilir. Xüsusən köhnə qəbirstanlığın üstündə qurulan bazar, oğurluqlar, qəssabxanaların qabağında durub ət dalınca qaçan köpəklər, uçuşan milçəklər, alver vaxtı anlaşa bilməyib dalaşan, hətta bıçaqlaşan adamlar, baş verən əxlaqsızlıqlar və bütün iyrəncliklər olduğu kimi göstərilir. Yazıçı göstərir ki, bu qarmaqarışıqlığın içərisində kəndli pul qazandığı üçün xoşbəxtdir.

Əsərin əsas qəhrəmanı Qavruq işsiz və yoxsul bir gəncdir. Arpacıq kəndində yaşayan Qavruq yetimçiliklə böyümüş, kiçik yaşlarında pinəçi yanında şəyirdlik eləmiş, ustanın ona pis davranmasına dözə bilməyib ordan qaçmışdır. Kimsəsiz, yetim, işləməyi də bir o qədər də sevməyən bu gəncin ən böyük arzusu qızıl tapıb varlanmaq "Qavruq ağa" olmaqdır. Kənddən Sarduvan qəsəbəsinə böyük ümidlərlə gələn Qavruqun xəyalları puç olur. Burada onu daha dəhşətli bir həyat gözləyir. Səfalət, aclıq içində çırpınır, ac qalmamaq üçün müxtəlif işlərdə çalışır, bəzən dilənçilik də edir. Yazıçı bu obraz vasitəsilə bütün səfalətlərə baxmayaraq öz daxili azadlığından, mənəvi özgürlüyündən heç vaxt imtina etməyən bir obraz yaradır. Bu obraz daxili ziddiyyətləri ilə təqdim olunur. Bəzən özünə necə gəldi bir iş tapmaq, bəzən isə "ac, yoxsul, amma azad" yaşamaq istəyir. Ramazan Qaplan bu əsər haqqında yazır:

"Dünya və insanlar zalımdılar. İnsan dəyərlidir, amma güclülərin yanında rəzil olurlar. Cəmiyyət dəyişmədikcə insanın insan kimi yaşaması mümkün deyildir" ideologiyası üzərində

qurulan “Sarduvan”da işsizlik ve onun nəticəsi olaraq ortaya çıxan səfil yaşayış tərzi, daha əvvəl də göstərildiyi kimi fəlsəfi bir xarakter alır. Romanın əsas qəhrəmanlarının işsizlikdən doğan sıxıntılarıyla, “ac, fəqət hür” yaşama istəkləri bir-birinə qarışmışdır. Bəzən bu obrazların, həqiqətən işsiz olduqlarının sıxıntısımı, yoxsa fəlsəfi anlayışa bağlanmanın çətinliyi olduğu sual doğurur” (5, s.84).

Qavruq Məram ağanın tarlasında çox ağır bir işdə çalışmağa başlayır. Amma həyat yenə də onun üzünə gülmür. Məram ağa hər gün bir bəhanəyə Qavruğun pulunu vermir, daha sonra isə onu oğurluq böhtanı ilə həbsə saldırır. Həbsdən qurtulan Qavruq Məram ağadan intiqam almaq istəyir. Amma onu tapa bilmir. Ağa xanımı ilə birlikdə başqa bir yerə getmişdilər. Əsər boyunca Qavruğun ağanı axtardığını görürük. Əsərdən məlum olur ki, ağa bu oyunu təkcə Qavruğun başına açmayıb, o, bir çox insanların haqqına girmiş, onları məvacibsiz işlədərək istismar etmişdir.

Romanda işsizlikdən əziyyət çəkən, səfalətə sürüklənən, ümidsizlik içində çırpınan insanların intiharından bəhs edilir. Qəssabxanası bağlanan Rəhmət işsiz qalır, arvadı onu uşaqlarıyla qoyub evdən qaçır. Bir tərəfdən də uzunqulaq oğlunun təpikləyib əzir. Övladının ölümü Rəhməti intihara sürükləyir. Yazıçı bu problemi də maddi sıxıntıyla, işsizlikə bağlayır. Kekonun da faciəsi bu mahiyyəti daşıyır. Qavruq dostu Kekonun evində qalır. İkisi də işsiz və ümidsizdir. Rəhmətin xanımı kimi, Kekonun da xanımı onu atıb gedir. Keko Qavruğu da intihar etməyə çağıraraq özünü öldürür. Qavruğun intihar təşəbbüsü isə uğursuz olur. Qavruq səmimiyyətlə sağ qaldığına sevinir.

Əsərdə Qavruğun aclıqdan, səfalətdən azğınlaşdığını, hətta oğurluqğa cəhd etdiyi, "azğınlıq iqtisadi bərabərsizliyin bir məhsulu (2, 208)” kimi göstərilir. Çörək oğurlamaq istəyən Qavruq, “bir çörək oğurlasam nə olacaq, sanki ağalar, paşalar hər şeyimizi oğurlayırlar. Əsl oğrular, o namussuzlardır (3, 61)” deyib, hayqırır.

Onun üçün ən dəhşətli şey cinayət etmək, adam öldürməkdir. Çünki Qavruq vicdanlı, təmiz adamdır. İçində həmişə “Qavruq əfəndi”, “Qavruq ağa” ruhunu daşıyır. Qavruq: "Nəzərimdə heç bir günah insan öldürmək qədər böyük ola bilməzdi. İnsanın bir-birini öldürməyə haqqı yoxdur. İnsan qəssablarına, hətta az-çox haqlı olsalar belə nifrət edirəm” (3, 42) desə də, həyatını dəyişdirən bu iftiraya, haqqını yeyən Məram ağa və arvadı Pəmbəyə dəhşətli bir nifrət duyur və onları tapıb öldürməyi planlayır. Əsərin sonunda Qavruğun Məram ağanı tapdığı göstərilir. Məram ağa adını Hacı Üveyz kimi dəyişdirib bir kəndin muxtarlığını edir. Qavruq nəinki onu öldürə bilmir, heç yanına da yaxınlaşa bilmir. Əzən və əzilən, kəndli və ağa arasındakı bu konflikt nə qədər kəskinləşsə də əsər əzilənlərin yenilməsiylə bitir. Qeyd etdiyimiz kimi, romanda muxtar, ağa, imam obrazları əks qütbləri təmsil edir. Yazıçı göstərir ki, əslində kəndin muxtarının kim olması o qədər də vacib deyil, sistemin dəyişməsi əsasdır.

“Sarduvan” romanını araşdırdığımızda bu nəticəyə gəlirik ki, şüurlar dəyişmədikcə, insanlar maariflənmədikcə muxtarlar, ağalar, imamlar avam, cahil insanları istismar edəcəkdir. Yazıçı göstərir ki, kəndlilər nə qədər xülyalar dalınca kənddən şəhərə getsələr də öz xoşbəxtliklərini tapa bilmir, cəmiyyətə yabancı qalırlar.

**Məqalənin aktuallığı.** Faiq Baysal bu romanında kiçik insanların taleyindən, qarşılaşdığı haqsızlıqlardan bəhs edir. İşsizlik və işsizliyin doğurduğu problemləri əks etdirən əsər elə bu baxımdan da aktualdır.

**Məqalənin elmi yeniliyi.** Faiq Baysal yaradıcılığı, xüsusən də “Sarduvan” romanı ilk dəfə olaraq bu məqalədə tədqiqata cəlb edilir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən türk ədəbiyyatının tədqiqində, Faiq Baysal yaradıcılığının araşdırılmasında istifadə oluna bilər.

## Ədəbiyyat

1. Andaç F. Söz Uçar Yazı Kalır/ Yüzyılın Son Tanıkları 1, 1. Baskı, İstanbul: Can Yayınları, 2001.
2. Anthony G. Sosyoloji (çev. Hüseyin Özel), Ankara: Ayraç Yayınevi, 2000.
3. Baysal F,Sarduvan, 3. Baskı,İstanbul:Can Yayınları, 1993.
4. Gül Sancılı Adam Faik Baysal, Adapazarı Kültür Daire Başkanlığı, Adapazarı: Adapazarı, 2007.
5. Kaplan, Köy romanı, s. 84.
6. Makal M. Bizim köy (Bir öğretmenin notları), İstanbul: Varlık yayınları, 1950.
7. Oktay A. Toplumcu gerçekçiliğin kaynakları, İstanbul:Everest Yayınları, 2003.
8. https://tr.wikipedia.org/wiki/Faik_Baysal

**Э. Бабаева**

## Урбанизация в романе Фаика Байсала «Сардуван»

### Резюме

Мустафа Фаик Байсаль, один из авторов, занимающий особое место в турецкой литературе. Фаик Байсал, один из представителей социалистического реалистического движения, отражает внутренние проблемы сельской жизни. Его работы отражают класссовую борьбу, раздробленных крестьян, тяжелое положение рабочего класса. «Мир Разиля», «Последний день в Дирине», «Воли», «Мадам Бамбук» и другие. Одним из романов, привлекающих внимание писателей и писателя Фаика Байсала, является «Сардуван».

В статье исследуется роман писателя «Сардуван», внутренние конфликты, проблемы миграции из сел в города.

**E. Babayeva**

## Urbanization of Faik Baysal's novel "Sarduvan"

### Summary

Another remarkable writer of twentieth century Turkish literature is Mustafa Faikh Baysal. As a member socialist realism Faikh Baysal reflects on the problems of rural life in his literary works. His works highlight class struggle, oppressed peasant, the miserable condition of working class. One of the significant novels of the author of "Shameful world", "The last day in Dirina", "Voli", "Madam Bambu" is "Sarduvan". This article analyses "Sarduvan" in the context of conflicts of rural community, the problems of migration from rural to urban areas.

**Redaksiyaya daxil olub:** 18.09.2018